**“Vətəndaş cəmiyyəti”**.-2009.-№4.-S.11.

# *Hulusi Kılıç:* “Türkiyənin Azərbaycandakı səfirliyinin vəzifə kimi üzərinə götürdüyü ən əsas işlərdən biri də Türkiyə və Azərbaycandakı ictimai birliklər arasında əlaqələrin genişləndirilməsidir"

**Cənab səfir, ölkəmizdə fəaliyyət göstərən ictimai təşkilatlarla əlaqələriniz hansı səviyyədədir? Türkiyədə "ictimai fəaliyyət" dedikdə nə nəzərdə tutulur?**

Azərbaycanda Türkiyənin səfiri kimi fəaliyyətə başlayandan bu yana diqqət verdiyim ilk mövzular sırasında qeyri-hökumət təşkilatları ilə əməkdaşlığın təmin edilməsi olmuşdur. Vətəndaş cəmiyyəti nümayəndələrinin səfirliyimizdən tələb etdiyi qatqıları imkanlarımız çərçivəsində yerinə yetirmək qərarındayıq.

Vətəndaş cəmiyyəti quruluşu müəyyən edilmiş, rəsmi, cəmiyyət və dövlət qurumları xaricində və ümumiyyətlə bunlardan fərqli olaraq müstəqil çalışan, siyasi, sosial, mədəni və hüquqi məqsədlər istiqamətində lobbi fəaliyyəti göstərən, üzvlərinin, həmçinin könüllülərinin dəstəyi ilə çalışan, heç bir maddi qazanc güdməyən və gəlirlərini ianə və üzvlük haqları hesabına təmin edən quruluşdur. "İştirakçı demokratiya"nın imtina edilməsi mümkün olmayan bir təməl ünsürü hesab edilən qeyri-hökumət təşkilatları öz fəaliyyətləri ilə həmçinin dövlətlə cəmiyyət arasında bir körpü funksiyasını da yerinə yetirməkdədirlər. Vətəndaş cəmiyyəti təşkilatları eyni zamanda dövlətin yetərincə dəstəkləyə bilmədiyi, bu səbəbdən də boş qalan meydanda, ictimai meydanda, arxasındakı xalq dəstəyini artırmaq, şüurlu həmvətənlərini gücləndirmək məqsədindədirlər. Bu düşüncə tərzi meydana gəldiyi zaman ictimai təşkilatlar qazana bilər.

**Səfirlik olaraq, Türkiyə hökuməti adından hansı sahələr üzrə fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarına maliyyə yardımı ayırmağa üstünlük verirsiniz?**

Türkiyənin Azərbaycandakı vətəndaş cəmiyyət təşkilatlarını dəstəkləyərək üstünlük verməsi, xüsusən də, Azərbaycandakı ictimai fikrin inkişafı və bu inkişafda onların iştirak etməsi, "bir millət, iki dövlət" ifadəsinə söykənərək, iki ölkə və cəmiyyət arasında əlaqələri asanlaşdırılması və zənginləşdirilməsi üçün yerinə yetirilən layihələrin açıqlanması, Azərbaycanın beynəlxalq aləmə inteqrasiyasına kömək göstərə bilər.

**Türkiyədə fəaliyyət göstərən sivil toplum örgütləri ilə Azərbaycan ictimai qurumları arasında əlaqələrin və əməkdaşlığın yaradılması üçün vasitəçilik edərsinizmi?**

Türkiyənin Azərbaycandakı səfirliyinin vəzifə kimi üzərinə götürdüyü ən əsas işlərdən biri də Türkiyə və Azərbaycandakı ictimai birliklər arasında əlaqələrin genişləndirilməsidir. Əslində, bir-birini qardaş bilən və eyni dili danışan cəmiyyətlərimiz arasındakı bu cür əlaqələr, beynəlxalq əlaqələrdən belə daha əhəmiyyətlidir. Bu çərçivədə səfirliyimizə edilən bütün dəstək tələblərini qarşılıqsız buraxmamaq üçün çalışırıq.

**Cənab səfir, son dövrlər bəzi media orqanlarında Azərbaycanla Türkiyə arasında guya hansısa soyuqluq meyllərinin yaranması ilə bağlı məqamlar yer alır. Bu barədə nə deyə bilərsiniz?**

Türkiyə və Azərbaycan iki qardaş ölkədir və bundan sonra da eynilə davam edəcək. Mətbuatda dərc edilən məlumatların bir çoxu gerçəyi əks etdirmir və yaxud da əskik əks etdirir. Türkiyə ilə Azərbaycan arasında ən yüksək səviyyədə möhkəm bir əməkdaşlıq var və bunun dəyişilməsi ilə bağlı əslində heç bir fakt yoxdur.

**Müsahibə Tural Qabiloğlu**